**Erkin Vahidov**
Özbəkistan xalq şairi

# Füzulinin heykəli önündə

Yellər, nəfəs dərin bir an əsməkdən,
Nəğməli bülbüllər, siz də edin yad.
Kərbəla çölündə tənha gəzməkdən
Yorulub, dincəlir Füzuli ustad.
Dəniz dalğalanma, gəl, uğuldama,
Şair ilhamına vermə, sən xələl.
Ustad ürəyində şeir doğulmaqda,
Dünyaya gəlməkdə munis bir qəzəl:
“Səba, əğyardan pünhan qəmim dildara izhar et,
Xəbərsiz yarıma hali-xərabından xəbərdar et,
Könül, qəm gnülərin tənha keçirmə, istə bir həmdəm,
Əcəl xabından əfqanlar çəkib Məcnunu bidar et”.

Yarpaqlar rəqs edər şeir ahəngində,
Çiçəklər sakitcə əyib durar baş.
Mərmər çərhovuzun gümüş camına
Şair gözlərindən damcılayar yaş.
Bakı bağlarına çökməkdə axşam,
Günəş şüaları dənizdə süzər.
Şair ürəyindən daşanda ilham,
Göz yaşında axar qəmli bir qəzəl:
“Pərişan halın oldum, sormadın hali-pərişanım.
Qəmindən dərdə düşdüm, qılmadın tədbiri dərmanım,
Nə dersən, rüzgarım böyləmi keçsin, gözəl canım,
Gözüm, canım, əfəndim, sevdiyim, dövlətli sultanım”.

Aşiqlər yuxular səhərə yaxın,
Füzuli divanın qoynuna qoyub.
Məcnun sevgisinin sehrinə baxın,
Bülbüllər dinləyər budağa qonub.
Xalqım candan sevər sözü, sənəti,
Xalqım nəğmələrə məftundur əzəl.
Bugünü, sabahı, əbədiyyəti
Düşünən qəlblərdə yaşayar qəzəl:
“Müqəvvəş qaşların kim, vösmə birlə rəng tutmuşlar,
Qılınclardır ki, qanlar tömək ilə zəng tutmuşlar.
Səhər bülbüllər əfqanı dəgil bihudə gülşəndə,
Füzuli naleyi-dilsazına ahəng tutmuşlar”.
Qəzəl də olarmı bunca dilruba,
Bu qədər işvəli, bu qədər nazlı.
Mənim şairliyim yalandı, amma
Füzuli şeirinə aşiqəm azı.
Məcnun tək olmuşam dəli-divanə,
Dəlisov dalğalar düzünü desin,

Gecələr şeir oxuram mən yana-yana,
Dan yeri, sübh çağı - şahidlik etsin.
“Şifayi vəsl qədrin hicr ilə bimar olandan sor,
Zülali şövq-zövqün təşnəyi-diydar olandan sor.
Gözlü yaşlıların halın nə bilsin mərdümü qafil,
Kəvakib seyrini şəbta səhər bidar olandan sor”.

Yellər, nəfəs dərin bir an əsməkdən,
Nəğməli bülbüllər, siz də edin yad.
Kərbəla çölündə tənha gəzməkdən
Yorulub, dincəlir Füzuli ustad.

Dəniz dalğalanma, gəl, uğuldama,
Şair ilhamına vermə, sən xələl.
Ustad ürəyində şeir doğulmaqda,
Dünyaya gəlməkdə yeni bir qəzəl.

Çevirənlər: **Yaşar Qasımbəyli, filologiya elmləri doktoru**
**Almaz Ülvi (Binnətova), filologiya elmləri doktoru**